*Azərbaycan Mətbuatı - 140*

# Azərbaycan Publisistikası və İslam maarifçiliyi

*(Problemlər, mülahizələr və təkliflər)*




**Azərbaycan publisistikası deyəndə dərhal xalqımızın maarifçi demokratı, təbiətşünası, "Əkinçi" qəzetinin banisi Həsən Bəy Zərdabi (1842-1907) yada düşür.**

...Yazı yazan qələm söyləyəndə isə ilk öncə dahi söz ustaları Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Üzeyr Hacıbəyli, Səməd Vurğun və başqaları xatırlanır.

... Qələm sosial, iqtisadi, siyasi, mədəni və mənəvi həyatın demək olar ki, bütün sahələrindən yazmış, yazır və yazacaqdır da. Bu şüphəsizdir.

... Təbii ki, mən bu yazımda qələmin müraciət etdiyi bütün sahələrdən deyil, yalnız bu gün üçün çox aktual olan bir problemdən bəhs etməyi, söhbət açmağı məqsədəuyğun hesab edirəm. Bu, Azərbaycan publisistikasında İslam dininin və onun əsasını təşkil edən müqəddəs Quranın elmilik, obyektivlik, məntiqlik və dünyəvilik baxımından öyrənən, araşdıran, səciyyələndirən, qiymətləndirən və dəyərləndirən İslamşünaslıq elminin maarifçilik yolu ilə təbliği məsələsidir.

Göründüyü kimi, bu mövzu zaman və məkan baxımından çox aktual bir mövzudur. Problemin aktuallığı baxımından aşağıdakı terminlərin, anlayışların və məfhumların lüğəti və kəşf etdiyi elmi, fəlsəfi və publisistik çalarları barədə sual şəkilində qoyulan bəzi məqamlara toxunmaq və onları cavablandırmaq istərdik.

**Birincisi, İslam nədir?**

**İkincisi,** İslam dininin əsasını təşkil edən müqəddəs Quranın başlıca məğzi və mahiyyəti nədən ibarətdir?

**Üçüncüsü,** İslamşünaslıq elmi hansı fəlsəfi hikmətlərdən bəhs edir?

**Dördüncüsü,** yuxarıda qeyd olunan terminlərdə ehtiva olunan fikirlərin maarifçilik yolu ilə təbliği sahəsində müasir dövrdə Azərbaycan publisistikasının üzərinə düşən vəzifələr hansılardır?

**Beşincisi,** sözü gedən sahədə işin yaxşılaşdırılması üçün konkret təkliflər hansılardır?

**... Keçək onların cavablandırılmasına.**

**I.** "İslam dini ümumbəşəri mənəvi dəyərlərin mühüm tərkib hissələrindən biri olan, şərqdə sivilzasiyanın inkişafının, insan təfəkkürü və onun təkamülünün konkret və bəlli bir mərhələsində (VII əsrin əvvəllərində) meydana gələn, planetar miqyaslı ictimai şüurun bilavasitə özünəməxsus spesifik formalarından sayılan sosial, tarixi hadisə və fenomendir".

**II.** "Quran təkcə müsəlmanların deyil, dinindən, dilindən, milliyyətindən, cinsindən, irqindən, habelə digər sosial mənsubiyyətlərindən asılı olmayaraq bütövlükdə bəşər övladının müqəddəs stolüstü kitabıdır".

**III.** "İslamşünaslıq elmi ümumbəşər, o cümlədən Şərq, eləcə də Azərbaycan ictimai-fəlsəfi fikrinin ayrılmaz tərkib hissələrindən və onun aparıcı istiqamətlərindən biri, bəlkə də birincisidir".

**IV.** Yuxarıdakı terminlərdə - İslamın, Quranın və İslamşünaslıq elminin kəşf etdikləri dərin məna, məzmun və mündərəcə çalarlarını sadə, bədii-publisistik dillə dövrü mətbuat, efir, ekran və internet vasitəsi ilə hər bir Azərbaycan insanına, o cümlədən xüsusilə gəncinə çatdırmaqdan ibarətdir.

**V.** Beşinci sualla əlaqədar olaraq cavab verməklə bağlı qeyd etmək istərdik ki, burada əsasən üç məqamı önə çəkmək çox vacibdir.

**Birincisi,** İslam dininin mənşəyini mahiyyətini, fəlsəfəsini sosiologiyasını psixologiyasını və fenomologiyasını ümumxalq, ümumdövlət və mühüm strateji əhəmiyyət kəşb edən təhsil vasitəsilə gənclərə çatdırmaq lazımdır. Bunun üçün hər şeydən əvvəl, respublikamızın ali məktəblərində İslamşünaslıq fənni tədris olunmalıdır.

**İkincisi,** İslamşünaslıq elmi sahəsində yüksək ixtisaslı milli mütəxəssis kadrlar hazırlamaq çox vacibdir. Bunun üçün ilk növbədə və hər şeydən əvvəl, həmin sahədə humanitar yönümlü ali məktəblərdə və Azərbaycan Milli Elmlər Akademiyasının ictimai elmlər sahəsində fəaliyyət göstərən elmi tədqiqat institutlarının daha çox uyğun gələnlərinin birində "Qloballaşma şəraitində İslamşünaslıq elminin aktual fəaliyyətləri" şifrəsində namizədlik və doktorluq üzrə müdfiə şurasının yaradılması çox vacibdir.

**Üçüncüsü,** tövsiyə xarakterli həmin təkliflərin həyata keçirilməsi üçün respublikamızın müvafiq ali qurumlarının rəhbərləri bunları daim xüsusi diqqət mərkəzində saxlamağa bilavasitə borcludurlar. Bu, hər şeydən əvvəl, sözügedən sahədə ulu öndərimiz Heydər Əliyevin, prezidentimiz İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, Yeni Azərbaycan Partiyasının sədr müavini Mehriban xanım Əliyevanın aşağıdakı dərin məna, məzmun, və mündərəcə kəsb edən, kəlam xarakterli fikirlərini xatırlamaq istərdik.

**"İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir". (Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1999, səh. 77-78).**

"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir". (yenə orada, səh. 93).

"Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz azərbaycanlılar – bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq". (yenə orada səh. 93-94).

"Qurani-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

Azərbaycan Dövlət müstəqilliyi əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilib". (yenə orada, səh. 81-82).

**"... Azərbaycanda İslamşünaslıq sahəsində XX əsr demək olar, tamam itirilib.**

Bu işləri görmək üçün Azərbaycanda İslamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycanın Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və Elmi-Tədqiqat İnstitutları... bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar...

Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun ". (Heydər Əliyev. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı, 1999. Səh. 47).



Bu gün ölkəmizin iqtisadi qüdrəti artdıqca bundan xoflanan xarici media əleyhidarlarımız müstəqil Azərbaycana dinlə, o cümlədən xüsusilə İslamla bağlı qarayaxmalar, təhdidlər, şər və böhtanlar yağdırmaqdan belə çəkinmirlər. Bununla da onlar dini tolerantlıqda, multikulturalizm sahəsində müstəqil Azərbaycanın əldə etdiyi nailiyyətlərdə bütün dünyaya nümunə, örnək olmasına kölgə salmağa çalışırlar. Doğrudur, bu sahədə jurnalistlərimiz xeyli işlər görmüş, müsbət xarakterli məqalələr yazmış, efir, ekran və internet verlişləri hazırlamışlar. Onlardan ən xarakterikləri barədə misallar da çəkmək olardı. Lakin həmin sahədə görüləsi işlərimiz daha çox olduğuna görə, bu məsələnin üzərində daha ətraflı dayanmağı vacib hesab edirik.

**... Birincisi,** çox-çox təəssüflər olsun ki, bəzi müxalifyönlü qəzetlər və bəzi müstəqil radiolar, telekanallar, internet saytları öz fəaliyyətlərində mənasız şoulara, verlişlərə daha üstünlük verirlər.

**... İkincisi,** bəzi müxalifyönlü qəzetlərdə tez-tez müşahidə olunan mənfi xarakterli, mahiyyətli faktlar sağlam mənəviyyat sahiblərini çox narahat edir. Məsələn, həmin mətbuat səhifələrində bir məmur şəxsi, qərəzli, məkrli, mənfi münasibətlərini küllü miqdarda pul vəsaiti xərcləyərək sözügedən sahədə çalışan digər məmura böhtan, şər xarakterli yazılar yazdırmaqdan usanmaq bilmirlər. Burada bir tərəfdən həmin məmur günahkardırsa, digər yandan pul xətrinə namuslu, qeyrətli, vicdanlı, işgüzar məmur barədə qarayaxmalar, cızma-qaralar yazmağı özünə peşə edən "jurnalistlər" də günahkardırlar. Əlbəttə, belələrinin adlarını da çəkmək olardı. Hər şeydən əvvəl ona görə çəkmirik ki, belələri bir deyil, beş deyil, həddindən artıq çoxdur. İstəmirik ki, belələri tarixə düşsün.

**... Üçüncüsü,** İslamın, müqəddəs Quranın və İslamşünaslığın maarifçilik yolu ilə təbliğindən yazan bir çox müəlliflər İslamın və müqəddəs Quranın habelə İslamşünaslıq elminin həqiqi mahiyyətini bilmirlər. Məhz buna görə də belələri İslam dinini, müqəddəs Quranı oxuyub öyrənmirlər.

**Yeri gəlmişkən, müsbət həllini gözləyən çox vacib bir məsələni də qeyd etmək istərdim. Həqiqət, obyektivlik naminə belə bir faktı göstərməyi vacib hesab edirəm. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi uzun illərdir ki, respublikamızda yüksək ixtisaslı, peşəkar jurnalistlərin yetişdirilməsi ilə məşğul olur. Məsələn, müasir publisistikamızın klassiklərindən Şirməmməd Hüseynovu, Cahangir Məmmədlini, Qulu Məhərrəmlini və başqalarını buna misal göstərmək olar. Belə peşəkar, istedadlı jurnalistlərin sözügedən sahədə iti qələmləri vardır. ...Lakin...**

Burada qarşıya çox haqlı və təbii sual çıxır. Görəsən, müəllif yuxarıdakı abzasda hər iki tərəfinə üç nöktələr qoyduğu "lakin"lə nə demək istəyir? Cavab, üç nöqtələr və "lakin" o deməkdir ki, bir neçə il bundan əvvəl BDU-nun Jurnalistika fakültəsində təhsilin həm bakalavr, həm magistratura və eləcə də doktorantura mərhələsində "Azərbaycan publisistikasında İslam amili" fənni tədris olunurdu. Özü də bu fənni ölkəmizdə demək olar ki, yeganə elmlər doktoru, professor, Azərbaycan jurnalistlər birliyinin üzvü olan, "qızıl qələm" mükafatı laureatı bu sətrlərin müəllifi tədris edirdi. Lakin, çox-çox təəssüflər olsun ki, sırf subyektiv mülahizələrə əsasən belə bir vacib fənn tədrisdən çıxarıldı. Yeri gəlmişkən burada qeyd etmək istərdim ki, həmin subyektivlik BDU-nun rəhbərliyinə aid deyildir. Burada eyni zamanda tövsiyə xarakterli bir təklif də vermək istərdim.

**...Yaşadığımız hazırki XXI əsrdə - qloballaşma, inteqrasiya, informasiya və kommunikasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı indiki zamanda, şəraitdə BDU-nun Jurnalistika fakültəsində əvvəllər tədris olunan və çox yaxşı müsbət nəticələr verən "Azərbaycan publisistikasında İslam amili" fənninin tədrisini bərpa etmək hava və su kimi lazımdır.**

Əsədulla QURBANOV,
BDU-nun İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin rəhbəri,
Fəlsəfə elmləri doktoru, professor,
məşhur "91"-lərdən biri